**Unudulmaz anları tarixin yaddaşına yazan media nümayəndələri COP29-da - FOTOREPORTAJ**

Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) günlər biri-birini əvəz edir. Dünyanın müxtəlif ölkələrindən gələn dövlət və hökumət başçılarının, nazirlərin, ekoloq və mütəxəssislərin, qeyri-hökumət nümayəndələrinin iştirakı ilə keçirilən sessiyalar, panel iclasları, dəyirmi masalar və müzakirələr bu beynəlxalq tədbirə əlavə rəng qatır. Tədbir iştirakçıları hamımızın ümumi evi olan dünyamızın başı üstünü alan ekoloji təhlükədən xilas yolları axtarır, götür-qoy edir, araşdırmalar aparırlar.

COP29-da onlar həmişəki kimi, yenə də iş başındadırlar. Kimi kamerası, kimi obyektivi, kimi diktofonu, kimi planşeti və notbuku ilə. Ayrı-ayrı ölkələrdən gələn media nümayəndələri planetin qorxulu yuxusuna çevrilən bəşəri fəlakətlə üzləşməmək, ondan minimum itkilərlə sovuşmaq, təbiəti qorumaq uğrunda gedən diskussiyaları ictimaiyyətə, oxuculara, tamaşaçı və dinləyicilərə çatdırmaq üçün öz peşə fəaliyyətlərini yerinə yetirirlər. Bütün dünya üçün narahatlıq doğuran problemin müzakirələri, irəli sürülən təkliflər, ideyalar onların diqqət mərkəzindədir. Müxtəlif media orqanlarını təmsil edən jurnalistlər, müxbirlər, reportyorlar, operatorlar, fotomüxbirlər bəşəriyyətin gələcəyi ilə bağlı aparılan çoxsaylı tədbirlərdə heç nəyi nəzərdən qaçırmırlar. Onlar tədbir və yığıncaqlarda iştirak edir, tanınmış mütəxəssislərin rəylərini öyrənir, iştirakçıların fikir və mülahizələrini soruşurlar. Onlar bu mötəbər beynəlxalq tədbirin hər anını çəkir, kadrlar, müsahibələr vasitəsilə tarixə çevirir, yaddaşa yazırlar. Amma bəlkə də ən az obyektivə tuş gələnlər elə onların özləridir...

Bu dəfə AZƏRTAC-ın fotoobyektivində peşə fəaliyyətlərini yüksək səviyyədə yerinə yetirən media mənsublarıdır.

https://azertag.az/xeber/unudulmaz_anlari_tarixin_yaddasina_yazan_media_numayendeleri_cop29_da____fotoreportaj-3291028

**AZƏRTAC**
**2024, 19 noyabr**